


Ölüm səviyyəsi

90%

İnkubasiya dövrü

21

gün



İnsanı, bəzi primatları, eləcə də qoşadırnaqlıları yoluxdurur

Şübhəli xəstələrlə yalnız infeksion nəzarət tədbirlərinə tam əməl etməklə təmasda olun!

Ebola virusu ilə yoluxmuş, yaxud yoluxmaya şübhəli olan şəxslər barədə bütün məlumatları təcili olaraq Səhiyyə Nazirliyinin Respublika Taun Əleyhinə Stansiyasına verin!

Qaynar xətt
+99412-530-32-13

Buklet Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin “Ebola virusu xəstəliyinə qarşı profilaktik tədbirlərin keçirilməsi barədə” 11.08.2014-cü il tarixli 78 nömrəli əmrinə əsasən hazırlanmışdır.



# EBOLA XƏSTƏLİYİ TƏHLÜKƏLİDİR!

## Ebola xəstəliyi nədir?

Ebola xəstəliyi virus mənşəli, qanaxma və qızdırma ilə nəticələnən, ölüm əmsalı 90%-ə çatan ağır yoluxucu xəstəlikdir.

## İnsanlar Ebola xəstəliyinə necə yoluxa bilərlər?

- virusa yoluxmuş heyvanların qanı, ifrazatları və digər bioloji mayeləri ilə sıx təmas vasitəsi ilə
- virusa yoluxmuş insanın qanı və ya digər bioloji mayeləri (nəcis, sidik, ağız suyu, sperma) sağlam insanın selikli qişasına və ya tamlığı pozulmuş dərisinə düşərsə
- xarici mühit faktorları (çirkli paltarlar, yataq ağları, işlənmiş şprislər) xəstə insanın qanı və ya ifrazatları ilə çirklənərsə və dərisinin tamlığı pozulmuş sağlam insan bu faktorlarla təmasda olarsa
- virusa yoluxmuş xəstələrə yardım göstərən və infeksion nəzarət tədbirlərinə tam əməl etməyən tibb işçiləri

## Kimlər daha çox bu xəstəliyə yoluxa bilərlər?

Ebola virusu ilə xəstəliyin alovlanması zamanı daha çox riskə meyilli olanlara aiddir:

- tibb işçiləri
- virusa yoluxanların ailə üzvləri və xəstə ilə sıx təmasda olan digər şəxslər
- xəstəlikdən ölmüş şəxslərin dəfnində və basdırılması mərasimlərində meyitlə bilavasitə təmasda olmuş şəxslər
- tropik rütubətli meşələrdən tapılmış heyvan cəsədləri ilə təmasda olmuş şəxslər

## Ebola xəstəliyinin hansı əlamətləri vardır?

Xəstəliyin inkubasiya dövrü, insan bu virusa yoluxduqdan sonra, 2 gündən 21 günə qədərdir. Xəstədə əlamətlər başlayan vaxtdan o, yoluxdurucu olur. İnkubasiya dövründə xəstə yoluxdurucu olmur.

## Ebola xəstəliyinin əlamətləri aşağıdakılardır:

- hərarətin qəflətən yüksəlməsi
- zəiflik
- əzələ, baş və boğaz ağrıları
- ürəkbulanma
- ishal
- səpgi
- böyrək və qaraciyərin funksiyalarının pozulması
- xarici və daxili qansızmalar

## Tibbi yardım üçün nə vaxt müraciət etmək lazımdır?

Əgər siz Ebola virusuna görə risk qrupuna aid olan ölkədə olmuşsunuzsa (Afrika ölkələri), yaxud Ebola virusuna yoluxmuş və ya yoluxmaya şübhəli olan şəxslə təmasda olmuşsunuzsa və sizdə xəstəliyin əlamətləri başlayıbsa, təcili olaraq həkimə müraciət etməlisiniz.

Ebola virusu ilə yoluxmuş, yaxud yoluxmaya şübhəli olan şəxslər barədə bütün məlumatlar təcili olaraq Səhiyyə Nazirliyinin Respublika Taun Əleyhinə Stansiyasına verilməlidir.

Şübhəli olan şəxslər təcrid edilməli və Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilmiş tibb müəssisələrinə hospitalizasiya olunmalıdırlar.

Tibb işçiləri isə şübhəli xəstələrlə infeksion nəzarət tədbirlərinə tam əməl etməklə təmasda olmalıdırlar.



Xəstəliyin iri ocaqları



Ebola virusu ilk dəfə 1976-cı ildə Sudan və Zairdə müəyyən olunub. Virus Ebola çayı yaxınlığındakı rayondan təcrid olunub.